**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№344/5** **31 may 2022-ci il**

**Auditor xidmətinin sifarişçiləri arasında aparılmış sorğunun nəticələrinin təhlili üzrə hazırlanmış tövsiyələr barədə**

Azərbaycan Respublikası Auditorlar Palatasının 2022-ci il üzrə iş planının 8.4-cü "Sorğuların keçirilməsi və onların nəticələrinə dair tövsiyələrin hazırlanması" bəndinin icrasını təmin etmək məqsədilə 2022-ci ilin I rübündə auditor xidmətinin sifarişçiləri arasında keçirilmiş sorğunun nəticələrinin təhlili üzrə hazırlanmış tövsiyələrə dair Aparatın rəhbəri Q.Bayramovun məruzəsini müzakirə edərək Auditorlar Palatsının Şurası

**QƏRARA ALIR:**

1. Auditor xidmətinin sifarişçiləri arasında aparılmış sorğunun nəticələrinin təhlili üzrə hazırlanmış tövsiyələr bəyənilsin (əlavə olunur).

2. Auditin hüquqi tənzimlənməsi və dövlət orqanları ilə iş idarəsinə (E.İbrahimov) tapşırılsın ki, iki həftə müddətində auditor təşkilatları və sərbəst auditorlar tərəfindən audit aparılarkən Azərbaycan Respublikasının qanunvericilik aktlarının, Beynəlxalq Audit Standartlarının, Peşəkar Mühasiblərin Beynəlxalq Etika Məcəlləsinin (Beynəlxalq Müstəqillik Standartları ilə birlikdə) və Auditorlar Palatasının normativ sənədlərinin tələblərinə ciddi riayət olunmasının təmin edilməsi və bu sahədə onların məsuliyyətlərinin gücləndirilməsi məqsədilə təkliflərini hazırlayıb təqdim etsin.

3. Auditorlar Palatası sədrinin elmi-metodik məsələlər üzrə müşaviri N.Talıbova və Kadr hazırlığı idarəsinə (E.Behbudova) tapşırılsın ki, iki həftə müddətində peşəkarlıq səviyyəsinin yüksəldilməsi məqsədilə auditorların sertifikatlaşdırma və Peşə Təhsili Sistemlərinin təkmilləşdirilməsinə dair təkliflərini təqdim etsinlər.

4. Auditin innovativ inkişafı, operativ tənzimləmə və keyfiyyətin idarə edilməsi idarəsinə (Q.Əhmədov) və Audit sistemində icra intizamı və daxili nəzarət şöbəsinə (Z.Almazov) tapşırılsın ki, 2 həftə müddətində müvafiq meyarlar əsasında sifarişçilər tərəfindən auditor seçimini təmin etmək məqsədilə Palatanın internet səhifəsində auditor seçimi funksiyalarının yaradılmasını təmin etsinlər.

5. Kadr hazırlığı idarəsinə (E.Behbudova, A.Seyidəliyeva) tapşırılsın ki, 200, 240, 250, 500, 520, 540, 560 saylı Beynəlxalq Audit Standartlarının tələblərinə riayət edilməsinə dair mövzuların auditorların 2022-ci il üzrə ixtisasartırma kurslarının tədris proqramına daxil edilməsini təmin etsin.

6. Auditin təşkili, hesabatlılıq və informasiya idarəsinin Haqsız rəqabətə qarşı mübarizə şöbəsinə (R.Cəfərli) tapşırılsın ki, 2 həftə müddətində tövsiyə olunan minimum hədlərin beynəlxalq təcrübə, sifarişçilərin, auditor təşkilatlarının, sərbəst auditorların və sorğuların nəticələri nəzərə alınmaqla təkmilləşdirilməsini təmin etsin.

7. Daxili auditora (N.Quliyeva) tapşırılsın ki, iki həftə müddətində təsərrüfat subyektlərində daxili audit sisteminin yaradılması məqsədilə maarifləndirmə işlərinin həyata keçirilməsi üçün təkliflərini təqdim etsin.

8. Bu qərarın mətni Palatanın internet səhifəsində yerləşdirilsin.

**Şuranın sədri** **Vahid Novruzov**